TURKPA
PARLIAMENTARY ASSEMBLY OF TURKIC-SPEAKING COUNTRIES

**BEYNƏLXALQ ƏLAQƏLƏR KOMİSSİYASI**

**TÜRKPA-nın BEYNƏLXALQ ƏMƏKDAŞLIĞININ ƏSAS ASPEKTLƏRİ VƏ PERSPEKTİVLƏRİNƏ DAİR**

**TÖVSİYƏ QƏRARI**

1. TÜRKPA, parlamentlərarası əməkdaşlığının yeni mərhələsində olaraq, parlament diplomatiyası vasitəsiylə dövlətlər arasında siyasi dialoqun inkişafında və möhkəmləsində, başqa ölkələr və beynəlxalq təşkilatlarla qarşılıqlı və bərabər faydalar əsasında olan işbirliyində, iştirak edən tərəflərin arasında sosial-iqtisadi, siyasi, mədəni, humanitar və hüquqi əlaqələrinin artırılmasında öz fəaliyyətini davam edir.

2. TÜRKPA BMT Baş Assambleyası, ATƏT Parlament Assambleyası, Beynəlxalq Parlamentlər Birliyi, İslam Əməkdaşlığı Parlamentlər Birliyi, Avropa Parlamenti, NATO Parlament Assambleyası, Asiya Ölkələrinin Parlament Assambleyası, Aralıq Dənizi Parlament Assambleyası, Cənubi-Şərq Avropa Əməkdaşlıq Prosesinin Parlament Assosiasiyası, Şimal Şurası, MDB Parlamentlərarası Asambleyası, Qara Dəniz İqtisadi Əməkdaşlıq Parlament Asambleyası, GUAM Parlament Assambleyası və Baltik Assambleyası kimi aparıcı beynəlxalq və regional təşkilatlarla əməkdaşlığın möhkəmlənməsində və TÜRKPA Katibliyi vasitəsiylə birgə layihələrin həyata keçirilməsində niyyətini və marağını ifadə etməkdədir.

3. TÜRKPA Türkdilli ölkələrin əməkdaşlıq prosesinin bütün ölçülər arasında aktiv qarşılıqlı fəaliyyətləri beynəlxalq təşkilatlarla uzun müddətli münasibətlərinin gücləndirəcəyini nəzərə almaqdadır.

4. TÜRKPA-nın beynəlxalq əməkdaşlıq sahəsində prioritetlərindən biri üzv olmayan Türkdilli ölkələri ilə əlaqələrin qurulmasıdır. Bununla yanaşı, TÜRKPA-nın fəaliyyətlərinə digər milli parlamentlərin qatılması beynəlxalq ictimaiyyət üçün Türkdilli dövlətlərin parlament ölçüsünü daha yaxından tanımaq imkanı yaradır.

5. Komissiya TÜRKPA-nın beynəlxalq təşkilatlarla daha əhatəli əməkdaşlıq etməsi məqsədiylə aşağıdakı tədbirlərin həyata keçirilməsini tövsiyyə edir:

i) Əsasən 2-ci paraqrafda göstərilən beynəlxalq və regional təşkilatlarla qarşılıqlı maraq kəsb edən istiqamətlərdə koordinasiya fəaliyyətinin artırılmasına və əsas regional məsələlər üzrə müzakirələr imkanların yaradılmasına yönəldilən əməkdaşlığı *inkişaf etdirmək* və TÜRKPA Katibliyi vasitəsiylə həmin təşkilatlarla birgə layihələri *həyata keçirmək*;

ii) Beynəlxalq parlament qurumları ilə, hansılarda ki TÜRKPA qonaq qismində təmsil olunur ya da heç bir şəkildə iştirak etmir, qarşılıqlı əsasda müşahidəçi statusun verilməsi prosesinin sürətləndirilməsi məqsədi ilə münasibətləri *möhkəmləndirmək;*

iii) Xüsusi məsələlərə ya da ortaq maraqlara aid olan fəaliyyət üzrə məlumat və sənədləşmə mübadiləsi vasitəsiylə TÜRKPA katibliyi və beynəlxalq təşkilatların katiblikləri arasında qarşılıqlı əlaqələrini *intensivləşdirmək*;

iv) OPPD-nin vasitəsiylə təcrübə mübadiləsi üzrə proqramlar və təşəbbüslərin, o cümlədən parlament diplomatiyasına yönəldilən digər birgə layihələrin həyata keçirilməsi üçün Avropa parlamenti və onun qurumları ilə aktiv ələqələrini *davam etdirmək*;

v) BMT və onun xüsusi orqanları ilə institusional əməkdaşlığına dair konkret mexanizmləri *tərtib etmək,* və BMT Baş Asambleyasında TÜRKPA-ya müşahidəçi statusun verilməsində müsbət nəticə olacağı halda, Bişkekdə 3-cü plenar sessiyada həmin məsələylə bağlı sənədlərin layihələrini *təqdim etmək*;

vi) Türkdilli dövlətlərin beynəlxalq ictimaiyyətlə iqtisadi, siyasi və mədəni əməkdaşlığı üçün modelin formalaşdırılması məqsədiylə TÜRKKON və TÜRKSOY təşkilatları ilə qarşılıqlı əlaqələri *gücləndirmək*;

vii) Türkmənistan və Özbəkistanla, onların milli parlamentləri ilə daimi təmasların qurulması vasitəsiylə, əməkdaşlığı *intensivləşdirmək*;

viii) İqtisadi əməkdaşlığın prioritet məsələlərinə, xüsusən enerji və nəqliyyat sahələrinə müraciət edilməsi üçün beynəlxalq təşkilatlarla TÜRKPA Katibliyi vasitəsiylə koordinasiya fəaliyyətini *təkmilləşdirmək*;

ix) TÜRKPA ilə siyasi və iqtisadi dialoqun yaradılmasında maraqlı olan ölkələrinin milli parlamentləri ilə əlaqələri *inkişaf etdirmək*;

x) TÜRKPA beynəlxalq müşahidəçilər missiyası çərçivəsində seçkilərlə bağlı beynəlxalq təşkilatlarla əməkdaşlıq imkanlarını *müzakirə etmək*;

xi) Növbəti dövr ərzində "Ölkələrarası əməkdaşlığın inkişafında gənc liderlərinin rolu" və "TÜRKPA: parlamentlərarası əməkdaşlığın yeni mərhələsi" mövzularında beynəlxalq konfransları *təşkil etmək.*